


# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

24 yanvar 2026-cı il
Şənbə

1933-cü ildən çıxır
№ 3 (3766)


# Davosda diplomatik uğur



## Azərbaycanın beynəlxalq müstəvidə strateji rolu artır

*"Sülh sazişinin qısa müddətdə paraflanması güclü siyasi iradə ilə mümkündür."*

Davos Dünya İqtisadi Forumunda Azərbaycanın fəal iştirakı ölkənin regional və qlobal gündəlikdə artan rolunu bir daha nümayiş etdirdi. Bu forumda İlham Əliyevin çıxışları və keçirdiyi görüşlər Azərbaycanın sülh, əməkdaşlıq və iqtisadi inteqrasiya strategiyasının praktik nəticələr doğurduğunu göstərdi. Bu forumda İlham Əliyevin çıxışları və keçirdiyi görüşlər Azərbaycanın sülh, əməkdaşlıq və iqtisadi inteqrasiya strategiyasının praktik nəticələr doğurduğunu göstərdi.

Prezident İlham Əliyevin çıxışlarının əsas xətti post-münaqişə mərhələsində sülhün real faydalarının ortaya çıxması idi. Dövlət başçısının vurğuladığı kimi, sülh sazişinin qısa müddətdə paraflanması güclü siyasi iradənin və qarşılıqlı öhdəliklərin mümkün nəticəsidir.

Prezidentin Davosdakı çıxışlarında Avrasiya anlayışı geniş, lakin praqmatik çərçivədə təqdim olundu. Azərbaycanın prioriteti birbaşa qonşularla əməkdaşlıq və regional gündəliyin möhkəmləndirilməsidir. Türkiyə və Gürcüstanla artıq mövcud olan sıx iqtisadi əlaqələr, milyardlarla dollarlıq investisiyalar bu yanaşmanın real dayaqlarıdır.

Xüsusilə yeni nəqliyyat və bağlantı marşrutları olan Orta Dəhliz, Cənubi Qafqaz üzərindən keçən alternativ yollar və ABŞ-ın himayəsi ilə planlaşdırılan TRIPP layihəsi Azərbaycanın regionu qlobal ticarət və logistika zəncirinin mühüm həlqəsinə çevirmə niyyətini ortaya qoyur.

Davosda ən böyük maraq doğuran məqamlardan biri Prezident İlham Əliyevin transmilli korporasiyaların rəhbərləri ilə keçirdiyi görüşlər oldu. “Vitol”, “Dell Technologies”, “BlackRock” və onun tərkibində olan “Global Infrastructure Partners”, “J.P. Morgan”, “DP World”, “Vestas Wind Systems”, “Brookfield Asset Management” kimi nəhəng şirkətlərlə dialoq Azərbaycanın artıq sabit və proqnozlaşdırılan investisiya məkanı kimi qəbul edildiyini göstərir.

Bu siyasi və iqtisadi gündəliyin məntiqi davamı olaraq, yanvarın 22-də Davosda Prezident İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp ilə görüşü xüsusi əhəmiyyət kəsb etdi. Görüşdə Donald Trampın yenidən hakimiyyətə gəlməsindən sonra Azərbaycan–ABŞ münasibətlərinin müxtəlif sahələr üzrə inkişafından məmnunluq ifadə olundu. Ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində əldə olunan razılaşmalarda Prezident Donald Trampın tarixi rolu vurğulandı. Prezident İlham Əliyev regionda artıq sülhün mövcud olduğunu, bunun isə iki ölkə arasında ticarət münasibətlərinin formalaşmasında öz əksini tapdığını, Zəngəzur dəhlizinin və TRIPP layihəsinin regional bağlantılar baxımından mühüm rol oynadığını vurğulayıb.

Görüş zamanı ABŞ Prezidentinin sədrliyi ilə yaradılan Sülh Şurasının əhəmiyyətinə də toxunulub. Tərəflər ikitərəfli münasibətlərin perspektivləri barədə də fikir mübadiləsi aparıblar.

# Qarşılıqlı fəaliyyət güclənir

## Nazirlər saziş və protokol imzalayıblar



Yanvarın 16-da Belarus Respublikasının daxili işlər naziri milis general-leytenantı İvan Kubrakovun başçılıq etdiyi nümayəndə heyəti ölkəmizə rəsmi səfərə gəlib.

Nazir İvan Kubrakov və onu müşayiət edən şəxslər Fəxri xiyabana gedərək xalqımızın ümummilli lideri Heydər Əliyevin əziz xatirəsini ehtiramla anıblar. Daha sonra Zəfər parkına gələn qonaqlar Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı Qələbəni simvolizə edən Zəfər abidəsi önünə əklil qoyaraq şəhidlərimizə ehtiramlarını ifadə ediblər.

Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov belaruslu həmkarı və onun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə Vilayət Eyvazov hüquq-mühafizə fəaliyyəti sahəsində əməkdaşlıqdan məmnunluğunu bildirərək, transmilli mütəşəkkil cinayətkarlığın əsas növləri olan narkotiklərin qanunsuz dövriyyəsi, insan alveri, qanunsuz miqrasiya və kibercinayətkarlıqla mübarizənin diqqət mərkəzində saxlanıldığını, bu istiqamətlərdə səmərəli nəticələrin birgə səylərlə mümkün olduğunu vurğulayıb.

Tərəfləri maraqlandıran bir sıra məsələlər üzrə fikir mübadiləsi aparılıb.

Belarus Respublikasının daxili işlər naziri milis general-leytenantı İvan Kubrakov səmimi görüşə və göstərilən qonaqpərvərliyə görə azərbaycanlı həmkarına təşəkkürünü bildirib.

Sonda nazirlər qarşılıqlı fəaliyyət haqqında saziş və protokol imzalayıblar.

## Yaxın Şərqdə sülh təsis edilir

### Azərbaycan sülh prosesinə qoşuldu

Yanvarın 22-də Prezident İlham Əliyev Davosda Azərbaycanın Sülh Şurasına təsisçi üzv dövlət qismində qoşulması barədə sənədi imzalayıb.

İmzalama mərasimində ABŞ Prezidenti Donald Tramp və onun Sülh Şurasına qoşulmaq üçün dəvətini qəbul edən ölkələrin liderləri iştirak edib.

Həmin gün Davosda Azərbaycan Prezidenti ilə ABŞ Prezidenti arasında görüş də keçirilib.

Söhbət zamanı Sülh Şurasına təsisçi üzv dövlət qismində Azərbaycanın dəvət olunması Azərbaycan-ABŞ strateji tərəfdaşlığının və ölkəmizin dünyada sülhün təşviqində oynadığı rolun təcəssümü kimi qiymətləndirilib.

## Yaşasın “Qarabağ!”

### Dövlət başçısı futbolçuları təbrik edib

Prezident İlham Əliyev “Qarabağ” futbol klubunun Çempionlar Liqasındakı qələbəsi münasibətilə sosial media hesablarında paylaşım edib.

Prezident paylaşımında “Qarabağ”ın “Ayntraxt” komandası üzərində parlaq qələbəsini təbrik edib, oyunda hakimin ədalətsiz və qərəzli qərarlarına baxmayaraq, haqq-ədalətin qalib gəldiyini vurğulayıb. “Qarabağ”a qarşı hakimlərin ədalətsiz qərarlarına toxunan dövlət başçısı paylaşımını “Ədaləti və əyilməz ruhu məğlub etmək mümkün deyil. Yaşasın, “Qarabağ!” sözləri ilə yekunlaşdırıb.

## Davosda müsahibə

### “Azərbaycan əcnəbilər üçün çox cəlbedici olub”

Prezident İlham Əliyev yanvarın 20-də Davosda “Euronews” televiziyasına müsahibə verib.

Sonra “Azərbaycan rəhbərliyi ilə səhər yeməyi” adlı tədbirdə iştirak edən dövlətimizin başçısı müxtəlif ölkələri təmsil edən biznes nümayəndələrinin suallarını cavablandıraraq bildirib ki, Bakı və Azərbaycan əcnəbilər üçün çox cəlbedici olub. Buna görə də sərmayədarlar özlərini rahat və təhlükəsiz hiss etdikləri ölkəmizə investisiya yatırmaq istəyirlər.

## Prezidentin sülh təşəbbüsü mükafatlandırıldı

### Qərar beynəlxalq müstəqil münsiflər tərəfindən verilib

Birləşmiş Ərəb Əmirliklərinin nüfuzlu Şeyx Zayed Fondu 2026-cı il üçün “Zayed İnsan Qardaşlığı Mükafatı”nın qaliblərini açıqlayıb. Nüfuzlu beynəlxalq mükafata layiq görülənlər sırasında Azərbaycan Prezidenti İlham Əliyev də var.

Belə bir qərar beynəlxalq müstəqil münsiflər heyəti tərəfindən Azərbaycan və Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında sazişin paraflanmasına görə verilib. Mükafat fevralın 4-də Əbu-Dabi şəhərində keçiriləcək mərasimdə təqdim olunacaq.


DİN-də Kollegiya iclası keçirilib..........2

DİN-də əməliyyat müşavirəsi.............2

Etik Kodeksin tələbi...........................3

Sözsüz danışan sübutlar....................4

# Respublika Xəbərləri

### Xankəndiyə ilk köç

İlk köç karvanı ilə Xankəndi şəhərinə çatan ailələrə mənzillərinin açarları təqdim olunub. İlkin mərhələdə Xankəndi şəhərinə 36 ailə - 162 nəfər köçürülüb. Bu ailələr respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşanlardır.

### Şəhid ailələri unudulmur

Bu günədək 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə və 20 Yanvar şəhidlərinin ailələrinə 143 mənzil verilib. Ötən dövrdə bu qəbildən olan şəxslərə isə 100-dək avtomobil təqdim edilib. Şəhid ailələri üçün Prezidentin aylıq təqaüdü 700 manata çatdırılıb.

### Minimum əməkhaqqı ilə bağlı yenilik

Minimum əməkhaqqının məbləğinə ildə bir dəfədən az olmayaraq yenidən baxılacaq. Milli Məclisdə müzakirə olunan qanun layihəsinə əsasən minimum əməkhaqqının məbləğinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurumun təklifləri əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən bir il ərzində təkrarən baxılacaq.

### İqtisadi dinamika

Ötən il ölkədə 129,1 milyard manatlıq ümumdaxili məhsul istehsal olunub ki, bu da əvvəlki illə müqayisədə 1,4 faiz çoxdur. Neft-qaz sektorunda 1,6 faiz azalma, qeyri-neft sektorunda isə 2,7 faiz artım qeydə alınıb.

### Pasport reytinqində irəliləyiş

Azərbaycan 2026-cı il "Henley & Partners" Pasport Reytinqində 3 pillə irəliləyərək 67-ci yerə yüksəlib. Qeyd edək ki, Azərbaycan vətəndaşları 70 ölkəyə vizasız, gəlişdə viza və ya elektron viza ilə səfər edə bilirlər.

### Onların təhsilini dövlət maliyyələşdirəcək

Sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin Azərbaycanın təhsil müəssisələrindəki əlavə təhsil istisna olmaqla ödənişli təhsilinin haqqı dövlət tərəfindən qarşılanacaq. Bununla bağlı "Təhsil haqqında" qanuna dəyişiklik edilir.

### Təhsillə bağlı sənədlər rəqəmsallaşır

Azərbaycanda kağız diplomlar, attestatlar artıq verilməyəcək. Təhsil haqqında dövlət sənədləri tam rəqəmsal formaya keçir. Bununla bağlı hökumət qərar qəbul edib. Cari ildən Azərbaycan vətəndaşlarına verilən attestatlar, diplomlar və sertifikatlar yalnız elektron qaydada təqdim ediləcək.

Müəyyən portallar və mobil tətbiq vasitəsilə vətəndaşlar öz təhsil sənədlərinə çıxış əldə edəcəklər.

### Milli valyutada əmanətlər artıb

Mərkəzi Bankın məlumatına görə, əhalinin bank əmanətləri 13,7 faiz artaraq 16 milyard 181,8 milyon manata çatıb. Əmanətlərin 68 faizi milli valyutadadır. Milli valyutada əmanətlər 17,4 faiz artıb.

### Çindən Bakıya qatar gəlir

Çinin iri liman şəhərlərindən olan Tiencindən Trans-Xəzər beynəlxalq nəqliyyat marşrutu – Orta Dəhliz vasitəsilə Azərbaycana yük qatarı xətti açılıb. Polad borular, məişət avadanlığı və digər mallarla yüklənmiş qatar Qazaxıstana, oradan isə Xəzər dənizi ilə Bakıya çatacaq.

### İnternet təminatı genişlənib

"Aztelekom"un məlumatına görə, Ağdamda 974 ev təsərrüfatı və 23 biznes subyekti, Kəlbəcərdə isə 121 ev təsərrüfatı və 22 biznes subyekti internet daxil olmaqla telekommunikasiya xidmətləri ilə təmin olunub.

### Uşaq əməyinə görə cəzalar sərtləşdirilir

Azərbaycanda uşaq əməyinə görə məsuliyyətin sərtləşdirilməsi nəzərdə tutulur. Bu barədə Dövlət Əmək Müfəttişliyi Xidmətinin illik konfransında məlumat verilib. Qeyd edilib ki, bununla bağlı Cinayət və İnzibati Xətalar Məcəllələrinə dəyişiklik layihələri hazırlanaraq aidiyyəti üzrə təqdim edilib.

### Paytaxtda yeni parklar salınacaq

Bakı şəhərinin Baş Planına əsasən 2040-cı ilə qədər istismar müddəti bitmiş binalar söküləcək. Yenidənqurma işlərinə paytaxtın 7 rayonunda başlanılacaq, həmin ərazilərdə parklar salınacaq və yeni binalar tikiləcək.

# Daxili İşlər Nazirliyində Kollegiya iclası keçirilib

## Ölkəmizdə möhkəm təməllərə söykənən sabitlik ötən il də etibarlı qorunub

**Yanvarın 23-də Daxili İşlər Nazirliyində 2025-ci ildə cinayətkarlığa qarşı mübarizə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətin yekunlarına və cari ildə qarşıda duran vəzifələrə həsr olunmuş geniş Kollegiya iclası keçirilib.**





İclası giriş sözü ilə açan nazir general-polkovnik Vilayət Eyvazov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən hüquq mühafizə siyasəti sayəsində ölkəmizdə möhkəm təməllərə söykənən sabitlik "Konstitusiya və Suverenlik İli" olan 2025-ci ildə də etibarlı qorunub. Cinayətkarlıqla mübarizə, ictimai asayişin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində xidməti vəzifələr layiqincə yerinə yetirilib, beynəlxalq və respublika əhəmiyyətli kütləvi tədbirlərdə, habelə işğaldan azad olunmuş ərazilərdə təhlükəsizlik etibarlı təmin edilib. Ümumən qanunla müəyyən edilmiş funksiyaların icrası digər hüquq mühafizə orqanları ilə qarşılıqlı əlaqədə peşəkarlıq və qətiyyətlə davam etdirilib.

### Cinayətlərin üstü yüksək faiz göstəricisi ilə açılıb

Hesabat məruzəsində vurğulanıb ki, ötən il əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan bütün dövlət qurumları üzrə 31.852 cinayət qeydə alınıb, onlardan 90,5 faizi açılıb, əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayı 310 fakt təşkil edib. Cinayətlərin 92,8 faizi və ya 29.572-i daxili işlər və prokurorluq orqanlarının səlahiyyətləri çərçivəsində araşdırılan hüquqazidd əməllər olmaqla 93,5 faizinin açılması təmin edilib. Cinayətlərin ağır və xüsusilə ağır növlərinin 90,1, qeyri-aşkar şəraitdə baş verənlərin 90,9, şəxsiyyət əleyhinə olanların 98,9, mülkiyyət əleyhinə olanların 89,5 faizi, qəsdən adam öldürmələrin, qəsdən sağlamlığa ağır zərər vurmaların, soyğunçuluqların və quldurluqların hamısı açılıb.

Xırda talamaların açılmasının nəticələri də yaxşılaşaraq 92 faizə yüksəlib.

Cinayətlərin ağır, xüsusilə ağır və transmilli mütəşəkkil növlərinin qarşısının alınması və istintaqı kimi mühüm vəzifələrin icrası sahəsində böyük bir iş həcmi yerinə yetirilib. Prokurorluq orqanları ilə birgə həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri ilə cəmiyyətdə rezonans doğurmuş bir sıra cinayətlərin açılması təmin edilib, eləcə də keçmiş illərdən bağlı qalmış 355 cinayət açılaraq təqsirli şəxslər məsuliyyətə cəlb olunub.

Ağır və xüsusilə ağır cinayətlər törətmiş 1.033 nəfər tutulub, 214 kriminal qrup zərərsizləşdirilib. Qrup halında baş verən cinayətlər 8,9, odlu silahın tətbiqi ilə törədilənlər 44,1, ailə münaqişəsi zəminli cinayətlər 3,1, əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilənlər 17,5 faiz azalıb. Eyni zamanda, ümumi cinayətlər 6,2, ağır və xüsusilə ağır cinayətlər 8,6, qeyri-aşkar şəraitdə baş verənlər 10,5, qəsdən adam öldürmələr 8,8, qəsdən sağlamlığa ağır zərər vurmalar 4,7, mülkiyyət əleyhinə olanlar 6,7, onlardan informasiya texnologiyalarından istifadə edilməklə törədilənlər 16,9, habelə yol-nəqliyyat hadisələri 12,3, qəzalarda ölənlərin sayı 9,8, xəsarət alanların sayı 13,6 faiz azalıb.

### Erkən evliliyə cəhd faktlarına qarşı qətiyyətli tədbirlər görülür

Həyata keçirilmiş qabaqlayıcı tədbirlərlə 90 erkən evliliyə cəhd faktı müəyyən edilərək 28 nəfər cinayət məsuliyyətinə cəlb olunub, 5 valideyn aidiyyəti şəxs barədə inzibati tənbeh tətbiq edilib, daha 57 şəxslə profilaktik iş aparılıb. Həmçinin 15 qız qaçırma faktı üzrə Cinayət Məcəlləsinin adam oğurluğu maddəsi ilə cinayət işi başlanılaraq 32 şəxs haqda müvafiq məsuliyyət tədbirləri görülüb.

Qeyri-leqal dövriyyədən 2024-cü illə müqayisədə 961 kiloqram çox - 5 ton 675 kiloqram narkotik vasitə çıxarılıb, 272 kiloqram narkotikin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsinin qarşısı alınıb, onlayn satışla bağlı 2 ton 724 kiloqram müvafiq vasitə aşkarlanıb, qanunsuz kultivasiya edilən və yabanı halda bitən 294 tondan artıq çətənə və xaş-xaş kolu yığılaraq məhv edilib, narkotiklərlə əlaqəli cinayətlərə görə 88 cinayətkar qrup zərərsizləşdirilib.

### İnternet resurslarında zərərli sosial şəbəkə hesabları aşkar edilərək bloklanıb

İnternet resurslarının real vaxt rejimində monitorinqi də davam etdirilərək dini radikalizmi və kriminal həyat tərzini təbliğ edən 954, narkotik vasitələrin onlayn satışı ilə məşğul olan 769, pornoqrafik materiallar yayan 272, kompüter sistemlərinə zərər vuran viruslar yayan 189, qanunsuz idman mərc oyunları təşkil edən 1.131, ümumilikdə 3.315 sayt, sosial şəbəkə hesabı və səhifə aşkarlanaraq bloklanması təmin edilib.

Təqsirləndirilən şəxslərin axtarışının nəticələri də yaxşılaşaraq 89,3 faiz təşkil edib, İnterpolun Milli Mərkəzi Bürosu vasitəsilə beynəlxalq axtarışa verilmiş 82 şəxsin və bu təşkilata üzv xarici ölkələr tərəfindən axtarılan 40 nəfərin yeri müəyyən olunub.

Ümumilikdə 5.199 odlu silah, o cümlədən işğaldan azad edilmiş ərazilərdən 1.079 döyüş silahı, 2.183 mərmi və 220 mindən çox patron aşkarlanıb. Qanunsuz odlu silah saxlama və daşıma ilə bağlı 502 fakt müəyyən edilib, həmin cinayətlərə görə 153 nəfər tutulub.

### Polis və Daxili Qoşunlar Böyük Qayıdışın təhlükəsizliyini birlikdə təmin edirlər

Qarabağ və Şərqi Zəngəzurda xidmət aparan polis və Daxili Qoşunlar Böyük Qayıdış proqramının sürətlənməsi üçün əzmlə çalışaraq üzərlərinə düşən vəzifələri tam həcmdə yerinə yetirib.

Fəaliyyətin mühüm istiqamətlərindən olan və gündəlik nəzarətdə saxlanılan vətəndaş məmnunluğunun təmin edilməsi tədbirləri çərçivəsində ümumilikdə 8.491, o cümlədən mediada qabaqcadan məlumat verilməklə respublikanın 70 şəhər və rayonundan olan 6.910 şəxs qəbul edilib, qaldırılan məsələlərin əksəriyyəti yerində və müsbət həll edilib. Vətəndaş müraciətlərinə həssaslıqla baxılaraq Nazirliyə, onun "102" Xidmətinə və qaynar xətlərə daxil olmuş, eləcə də sosial şəbəkələrdə yayımlanmış 3 milyona yaxın müraciətə çevik reaksiya verilib, habelə cinayətlər nəticəsində vurulmuş maddi ziyanın 86,7 faizi ödənilib. Dövlət-vətəndaş münasibətlərində şəffaflığın, operativliyin artırılmasına xidmət edən, sənədlərin və informativ məlumatların əldə olunması funksionallığını özündə birləşdirən "E-Polis" mobil tətbiqi təkmilləşdirilib və ötən ilin sonuna 825 mindən çox vətəndaş qeydiyyatdan keçib.

### Şəxsi heyətin peşəkarlığının artırılması diqqət mərkəzindədir

Şəxsi heyətin peşəkarlığının artırılması, mükəmməl nəzəri və praktiki hazırlığa malik olması, müasir iş metodlarına yiyələnməsi, bilik və bacarıqlarının təkmilləşdirilməsi məqsədilə ölkə daxilində və xarici dövlətlərdə keçirilən təlim, seminar, treninq, kurslara və onlayn formatda proqramlara 63 mindən çox polis əməkdaşı və Daxili Qoşun hərbi qulluqçusu cəlb edilib.

İclasın gündəliyinə uyğun olaraq məruzəətrafı çıxışlar da dinlənilib. Çıxış edənlər görülmüş işlərdən, əldə olunmuş nəticələrdən, mövcud nöqsanlardan və onların aradan qaldırılması üzrə həyata keçirilən tədbirlərdən danışıb.

### Vətəndaşların təhlükəsizliyi və əmnunluğu bundan sonra da təmin ediləcək

Kollegiya iclasına yekun vuran nazir 2025-ci ildə əldə olunmuş müsbət nəticələrin polis-vətəndaş münasibətlərinin davamlı inkişafının təzahürü və aidiyyəti dövlət orqanları ilə səmərəli əməkdaşlığın məntiqi yekunu olduğunu qeyd edərək onların göstərdikləri dəstəyə görə onlara təşəkkürünü bildirib.

Cəmiyyətdə sabitliyin və təhlükəsizliyin qorunub saxlanılması naminə mövcud əlaqələrin gücləndirilməsinin vacibliyini, eləcə də vətəndaş məmnunluğunun təmin edilməsini və hər bir şəxsin qanuni mənafeyinin və hüquqlarının müdafiəsinin əsas vəzifələrdən olduğunu vurğulayıb.

Bu kontekstdə cinayətlərin qarşısının alınması, açılması və araşdırılması üzrə xidməti vəzifələrin icrasına, hüquqazidd əməllər nəticəsində vurulmuş maddi ziyanın ödətdirilməsi, vətəndaş müraciətlərinə baxılması və onların qəbulu işinə yüksək məsuliyyət və peşəkarlıqla yanaşılmasını tələb edib.

Antinarkotik təbliğat sahəsində keçirilmiş maarifləndirmə tədbirlərinin əhəmiyyətinə də diqqət çəkərək bu istiqamətdə fəaliyyətin məqsədyönlü davam etdirilməsini və müvafiq tədbirlərdə iştirak edən dövlət qurumlarının mütəxəssislərinin, pedaqoqların, ictimaiyyət nümayəndələrinin tərkibinin genişləndirilməsini, məktəblərdən, valideynlərdən gələn hər bir aidiyyəti siqnala çevik reaksiya verilməsini tövsiyə edib.

Çıxışında bəzi ərazi orqanlarının fəaliyyətində olan çatışmazlıqları da qeyd edərək onların aradan qaldırılması və xidməti fəaliyyətin səmərəliliyinin davamlı surətdə artırılması ilə bağlı tapşırıqlarını verib.

General-polkovnik Vilayət Eyvazov daxili işlər orqanlarına, onun maddi-texniki bazasının möhkəmləndirilməsinə, şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsinə, infrastrukturunun yenilənməsinə göstərdiyi ali diqqət və qayğıya, fəaliyyətinə verdiyi böyük dəyərə və etimadına görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə bütün şəxsi heyət adından dərin minnətdarlığını bildirib və əmin edib ki, ölkədə qanunçuluğun, hüquq qaydasının qorunması, vətəndaşların təhlükəsizliyinin və məmnunluğunun təmin olunması sahəsində vəzifələr böyük əzm və qətiyyətlə davam etdiriləcəkdir.

# DİN-də əməliyyat müşavirəsi

## Daxili Qoşunlar bütün tapşırıqları yerinə yetirib

Yanvarın 19-da daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun rəhbərliyi ilə Daxili Qoşunların 2025-ci ildə xidməti fəaliyyətinin yekunlarına dair əməliyyat müşavirəsi keçirilib.

Müşavirəni giriş sözü ilə açan general-polkovnik Vilayət Eyvazov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ordu quruculuğuna, o cümlədən Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, şəxsi heyətin sosial və maddi-texniki təminatının, xidmət şəraitinin daha da yaxşılaşdırılmasına xüsusi diqqət göstərdiyini vurğulayıb.



Sonra daxili işlər nazirinin müavini – Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədov xidməti fəaliyyətin yekunları barədə məruzə ilə çıxış edib.

Bildirilib ki, hesabat ilində Daxili Qoşunlar qarşıya qoyulmuş bütün tapşırıqları məsuliyyətlə icra edib. İşğaldan azad edilmiş ərazilərdə mühafizə tədbirləri, minalanmış sahələrə keçmələrin qarşısının alınması istiqamətində görülən işlər xüsusi əhəmiyyət daşıyıb.

Məruzələrdə şəxsi heyətin döyüş, fiziki və ixtisas hazırlığının, idarətmə və qarşılıqlı fəaliyyət bacarıqlarının təkmilləşdirilməsi məqsədilə keçirilən xüsusi-taktiki təlimlərin həm Daxili Qoşun hissələrinin, həm də polis orqanlarının birgə fəaliyyətinin səmərəliliyini daha da artırdığı diqqətə çatdırılıb.

Müşavirədə beynəlxalq əhəmiyyətli idman yarışları və kütləvi tədbirlər zamanı polis və Daxili Qoşunların şəxsi heyətinin peşəkar fəaliyyəti xüsusi qeyd olunub. Vurğulanıb ki, ölkəmizdə keçirilən mötəbər idman turnirləri, beynəlxalq forumlar və digər irimiqyaslı tədbirlər dövründə ictimai asayiş və təhlükəsizlik yüksək səviyyədə təmin edilib.

Müşavirəyə yekun vuran nazir V.Eyvazov ötən hesabat ilində DİN-in Daxili Qoşunlarının fəaliyyətini yüksək qiymətləndirib, qarşıda duran vəzifələrdən danışaraq konkret tapşırıq və tövsiyələrini verib. Eyni zamanda əmin olduğunu bildirib ki, şəxsi heyət qarşıya qoyulan bütün vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcəkdir.

# Fasiləsiz, fədakar xidmət

## Hava şəraitindən asılı olmayaraq təhlükəsizlik təmin edilir



Azad olunmuş rayonlarda qarlı və şaxtalı hava şəraiti ilə əlaqədar polis əməkdaşları gücləndirilmiş rejimdə xidmətlərini davam etdiriblər.

Polis əməkdaşları xidmət apardıqları ərazilərdə təhlükəsizlik tədbirlərini gücləndirərək yollarda nəzarəti təmin edir və sürücülərə zəruri tövsiyələr verir, eləcə də yaranan çətinliklərin aradan qaldırılması üçün tədbirlər görüblər. Həmçinin ictimai asayişin qorunması, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və vətəndaşlara operativ yardım göstərilməsi məqsədilə polis əməkdaşları nəzarəti artırıblar.

Hava şəraitindən asılı olmayaraq əhalinin təhlükəsizliyinin təmin edilməsi daim diqqət mərkəzində saxlanılır.

# Davam edən missiya

## Polis veteranlarının təcrübəsi cinayətkarlıqla mübarizədə real nəticələr verir

Cinayətkarlıqla mübarizə və hüquqpozmalara qarşı profilaktik tədbirlərin effektivliyinin artırılmasında polis veteranlarının zəngin təcrübəsindən istifadə hər zaman aktual olub.

Uzun illər polis orqanlarında şərəfli xidməti ilə fərqlənən bu insanlar peşəkar bilik və bacarıqları, cəmiyyətdə qazandıqları yüksək ictimai nüfuzları ilə hüquqi düzənin etibarlı dayaqlarından biri kimi çıxış edirlər. Onların həyat və xidmət yolu gənc nəsil üçün əsl vətənpərvərlik məktəbi, hüquqa hörmətin və dövlətə sədaqətin canlı nümunəsidir.

Bu fikirlər real statistik göstəricilərlə də təsdiqini tapır. Ötən il ərzində polis veteranlarının bilavasitə köməyi ilə respublika üzrə 9050 cinayət işinin açılması təmin olunub ki, bu rəqəm, əslində, onların cinayətlərin üstünün açılmasında oynadıqları rolu aydın şəkildə göstərir və veteran təcrübəsinin effektivliyini faktlarla sübut edir. Hesabat dövründə münaqişəli ailələrlə işin təşkili, məişət pozuntularının qarşısının alınması və ictimai asayişin qorunması istiqamətində keçirilən tədbirlərdə polis veteranlarının iştirakı daha da genişləndirilib.

Veteranlar ötən il də şəxsi heyətlə təlim-tərbiyə işinin aparılmasında, gənc əməkdaşlara peşə vərdişlərinin aşılanmasında, onlarda dövlətə və dövlətçiliyə, anda və xidməti vəzifə borcuna sədaqət hisslərinin formalaşdırılmasında fəallıq nümayiş etdiriblər. Nizam-intizamın, qanunçuluğa ciddi əməl edilməsinin vacibliyi barədə aparılan izahatlar şəxsi heyətin peşəkarlıq səviyyəsinin yüksəlməsində əsas vasitələrdən birinə çevrilib. Ənənəvi olaraq keçirilən bu kimi tədbirlərdə dinləyicilərə, əsasən, ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyəti, onun ölkəmizə ali rəhbərliyi dövründə görülən işlər, aparılan islahatlar, o cümlədən Prezident İlham Əliyevin birbaşa rəhbərliyi altında Vətən müharibəsində qazanılan Qələbə və hazırda Qarabağın inkişafı naminə aparılan böyük quruculuq fəaliyyəti barədə geniş və ətraflı məlumatlar verilir.

Orta məktəblərdə polis əməkdaşları ilə birgə keçirilən maarifləndirici görüşlərdə veteranların iştirakı isə gənclərin sağlam həyat tərzinə hazırlanmasında, zərərli vərdişlərdən uzaq tutulmasında mühüm rol oynayır. Ötən il ərzində onların respublikanın 3262 təhsil müəssisəsində və kütləvi tədbirdə çıxış etməsi bu istiqamətdə görülən işlərin miqyasını aydın göstərir.

Bütün bunlar bir daha sübut edir ki, polis veteranlarının təcrübəsi cinayətkarlıqla mübarizədə olduqca dəyərli töhfədir.

# Polisdən operativ müdaxilə

## Polis əməkdaşları faciələrin qarşısını alıblar

Ötən həftə Bakının müxtəlif ərazilərində baş verən fövqəladə hadisələr zamanı polis əməkdaşlarının operativ və peşəkar müdaxiləsi bir daha özünü göstərib. Həmin hadisələr zamanı yenə çevik tədbirlər görülüb.

Paytaxtın Səbail rayonu, "Sahil" metrosunun yaxınlığında yerləşən dönərxanada yanğın baş verib. Ərazidə təhlükəsizlik təmin edilməklə yanaşı, yanğının söndürülməsinə polis əməkdaşları tərəfindən ilkin müdaxilə edilib. Əlavə olaraq, yanğınsöndürənlərin hadisə yerinə maneəsiz və təhlükəsiz şəkildə yaxınlaşması üçün zəruri şərait yaradılıb. Yanğın qısa müddət ərzində söndürülüb.

Nəsimi rayonunun Alı Mustafayev küçəsində isə ağır yol-nəqliyyat hadisəsi baş verib. Qəza zamanı xəsarət alan şəxslər vətəndaşlar və ərazidə xidmət aparan yol polisi əməkdaşlarının köməkliyi ilə avtomobildən çıxarılıb. Bununla yanaşı, təcili tibbi yardım avtomobillərinin hadisə yerinə maneəsiz və təhlükəsiz şəkildə yaxınlaşması üçün polis əməkdaşları tərəfindən zəruri şərait yaradılıb.

# Etik Kodeksin tələbi

## Polisin sosial mediada davranışları niyə şəxsi məsələ deyil?

**İnternet, sosial şəbəkələr həyatımıza elə nüfuz edib ki, artıq onsuz gündəlik yaşam tərzimizi təsəvvür etmək çətindir. Bunun müsbət və ya mənfi tərəfləri barədə ayrıca müzakirə aparmaq olar. Lakin bir həqiqət danılmazdır ki, sosial platformalar çoxdan ilkin mahiyyətlərini dəyişib. Onlar yalnız ünsiyyət vasitəsi olmaqdan çıxıb, cəmiyyətin düşüncəsinə təsir etmək, ictimai rəy formalaşdırmaq gücü qazanıblar.**

Bu mühitdə deyilən hər bir söz, paylaşılan hər bir şəkil və ortaya qoyulan hər bir mövqe geniş auditoriya tərəfindən izlənilir, qiymətləndirilir və çox zaman ümumiləşdirilərək qəbul olunur.

Xüsusilə də dövlət qurumlarında çalışan şəxslər üçün sosial mediada davranış adi vətəndaş mövqeyi çərçivəsindən çıxır və ictimai mahiyyət daşıyır.

Polis əməkdaşı da dövlətin siması, sabitliyin və təhlükəsizliyin rəmzidir. Onun real həyatda olduğu kimi virtual məkandakı davranışı da ictimai etimada birbaşa təsir göstərir. Buna əsasən deyə bilərik ki, "Daxili işlər orqanları əməkdaşlarının Etik Davranış Kodeksi"ndə sosial mediaya ayrıca maddənin həsr olunması olduqca zəruri və zamanın tələbinə uyğundur.

Ötən ilin iyul ayında yenilənən Kodeksin 39-cu maddəsində polis əməkdaşının sosial şəbəkələrdə hansı çərçivələr daxilində davranmalı olduğu və ya hansı hallara yol verməməli olduğu aydın şəkildə müəyyən edilib. Bu maddə polis




əməkdaşına xatırladır ki, xidmət forması çıxarıldıqdan sonra belə onun məsuliyyəti bitmir və sosial media da xidmət anlayışının bir hissəsi olaraq qalır.

Yəni polis əməkdaşının bu platformalarda davranışı artıq onun şəxsi mövqeyi kimi deyil, birbaşa dövlət orqanının mövqeyi kimi qəbul olunur.

Bu səbəbdən sosial şəbəkələrdə məsuliyyətsiz fəaliyyət həm xidmətin nüfuzuna, həm də ictimai etimada ciddi zərər vura bilər.

Xidməti vəzifələrinin icrası ilə bağlı olmayan hallarda polis əməkdaşı sosial şəbəkələrdən istifadə edərək ictimai müzakirələrə qatıldığı söylədiyi sözlər və etdiyi paylaşımlar cəmiyyətdə yanlış rəy yaratmaq riski daşıyır. Axı polis xidmətini qanunlara sadiqlik və təmkinli davranış prinsipləri üzərində qurur.

Sosial şəbəkələrdə emosional və ya subyektiv mövqedən çıxış edən əməkdaş isə bu prinsiplərə birbaşa xələl gətirir.

Şübhəsiz ki, xidməti fəaliyyətə dair məlumatların paylaşılması daha ağır nəticələr doğurur. Hətta məxfi olmayan, lakin xidməti xarakter daşıyan məlumatların sosial mediada yayılması əməliyyat təhlükəsizliyini zəiflədə, xidmət maraqlarına zidd vəziyyət yarada bilər.

Sosial mediada məxfi və konfidensial məlumatlarla bağlı tələblər dövlət təhlükəsizliyinin qorunmasına xidmət edir və bu tələbin pozulması intizam məsələsini də aşır. Bu, birmənalı olaraq ciddi hüquqi məsuliyyət yaradan haldır.

**Polis əməkdaşının xidməti vəsiqəsini, tabel silahını, nəqliyyat vasitəsini, geyim formasını, ona təhkim edilən xüsusi vasitələrini və ya iş otağında çəkilmiş fotolarını sosial mediada paylaşması bu şərəfli peşənin ciddiliyinə kölgə sala, eyni zamanda cinayətkar elementlər üçün əlavə məlumat mənbəyi rolunu oynaya bilər.**

Bütün bunlar sosial mediada məsuliyyətsiz davranışla polis xidmətinin bir araya sığmadığını açıq şəkildə göstərir.

Bu maddənin tələblərini pozduğuna görə barəsində sərt intizam tədbirlərindən tutmuş, xidmətdən xaric olunmaya qədər cəzalar tətbiq edilə biləcəyini nəzərə alan polis əməkdaşı, təbii ki, belə hallara yol vermir və verməməlidir də. Çünki intizamlı polis əməkdaşı qanunun keşiyində duran şəxs kimi virtual mühitdə də etik normalara əməl etməyin dövlətə və xalqa etimadın qorunması mənasına gəldiyini çox yaxşı anlayır.

*R.Mehtiyev*

# Saxta dost, dələduz, haker...

## Bir nəfər yüz əlli nəfəri aldadıb

Daxili İşlər Nazirliyi Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsinə sosial şəbəkələrdə müxtəlif şəxslərin profillərinin oxşarını yaradaraq onların dostluğunda olan vətəndaşlara banklar adından həqiqətə uyğun olmayan informasiyalar göndərilməsi və bu yolla çoxsaylı onlayn dələduzluqlar edilməsi barədə məlumatlar daxil olub.

Həyata keçirilən əməliyyat-texniki tədbirlərlə qeyd edilən qanunsuz əməlləri törətməkdə şübhəli bilinən, əvvəllər dəfələrlə məhkum olunmuş 23 yaşlı Zaur Teymurxanov kiberpolis tərəfindən saxlanılıb.

Araşdırmalarla müəyyən edilib ki, Z.Teymurxanov sosial şəbəkələrdə istifadəçilərin profil şəkillərini əldə edərək onların adlarına oxşar saxta hesablar yaradıb. Daha sonra həmin şəxslərin dost siyahısında olan istifadəçilərə yazaraq guya "bank kampaniyalarının keçirildiyi, yüksək məbləğdə pul mükafatı qazanmaq imkanı olduğu və kampaniyanın başa çatmasına az vaxt qaldığı" barədə mesajlar göndərməklə onların kart məlumatlarını əldə edib. Zərərçəkən şəxslər məlumatları və telefonlarına göndərilmiş "OTP" təhlükəsizlik kodlarını təqdim etdikdən sonra kartlardakı vəsait Z.Teymurxanov tərəfindən ələ keçirilib. O, sonradan şəxsiyyətini gizlətmək üçün taladığı pulları xarici onlayn alış-veriş resursları və elektron platformalara yönləndirib.

Araşdırmalarla Z.Teymurxanovun 150-yə yaxın vətəndaşa maddi ziyan vurduğu məlum olub.

Faktla bağlı araşdırma aparılır.

# Qonşudan gələn "yük"

## Narkotik satışının qarşısı alınıb

Lənkəran Şəhər Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən narkotiklərin qanunsuz dövriyyəsinə qarşı keçirilən əməliyyat zamanı əvvəllər məhkum olunmuş 46 yaşlı İlyas İsmayılov və 41 yaşlı Vəli Əbdülov saxlanılıblar. Həmin şəxslərdən ümumilikdə 18 kiloqramdan artıq marixuana, heroin, tiryək, metamfetamin, 427 ədəd psixotrop tərkibli həb və 5 ədəd elektron tərəzi aşkarlanıb.

Saxlanılan şəxslərin narkotik vasitələri şəxsiyyəti araşdırılan İran vətəndaşlarından deyiləcək ünvanlara çatdırmaq üçün əldə etdikləri müəyyən edilib. Faktla bağlı cinayət işi başlanıb.

# İtirilənlərin sorağı ilə...

## Vətəndaş ümidinin ünvanı – Tapıntılar bürosu

**Bəzən bir sənədin, bir əşyanın itməsi insanın gündəlik həyatını alt-üst etməyə kifayət edir. Belə məqamlarda vətəndaş üçün ümid ünvanına çevrilən yerlərdən biri də Bakı Şəhər Baş Polis İdarəsinin Tapıntılar bürosudur. Vətəndaşlıq mövqeyi nümayiş etdirərək tapdığı sənədi, əşyanı təhvil verənlərin də, itirdiklərini axtaranların da yolu adətən məhz buraya düşür.**

Əsas vəzifəsi fiziki və hüquqi şəxslərdən daxil olan tapılmış əşya və sənədlərin qəbulu, uçotu, saxlanılması və sahiblərinə qaytarılmasından ibarət olan Tapıntılar bürosu 2006-cı ildən fəaliyyət göstərir. O vaxtdan hər il yüzlərlə itki sahibi son ümid yeri kimi bu qapını döyür və əksər hallarda axtardığını elə burada tapır.

### Proses artıq "E-Polis"lə rəqəmsallaşıb

Sənədini axtaran vətəndaşın müraciətinə xüsusi yoxlamaya ehtiyac olmadığı hallarda 3 iş günü ərzində baxılır. Zərurət yarandıqda isə itirilmiş sənəd və ya əşyanın axtarışı ilə bağlı müraciətlərə 10 günədək müddətdə baxılır və bu barədə büronun möhürü ilə təsdiq edilmiş arayış təqdim olunur.

Ötən il Tapıntılar bürosuna ümumilikdə 3011 belə müraciət daxil olub. Müraciətlərin bir qismi "E-Polis" platforması üzərindən edilib ki, bu da xidmətlərin mərhələli şəkildə rəqəmsallaşdırıldığını göstərir.

### Arayış almaq vaxt aparmır

İtirilmiş sənədlərlə bağlı müraciətlərin "E-Polis" tətbiqi vasitəsilə onlayn edilməsi bir neçə ildir ki, mümkündür. Ötən il 600-dən çox müraciət məhz bu tətbiq üzərindən edilib. Tətbiqin "E-müraciət" bölməsində müvafiq forma doldurularaq müraciət Daxili İşlər Nazirliyinin sisteminə göndərilir. Bununla da polis idarəsinə getmək zərurəti aradan qalxır. Əvvəlki illərdən fərqli olaraq, artıq itirilmiş əşyanın tapılmaması barədə arayışın verilməsi prosesi də rəqəmsallaşdırılıb. Vətəndaşlar bu arayışı almaq üçün polis idarəsinə getmədən, "E-Polis" mobil tətbiqi üzərindən müraciət edə bilirlər. Arayış tətbiqin "Sənədlərim" bölməsində QR kod vasitəsilə təqdim olunur. Bununla da vaxt itkisi minimuma enir və proses cəmi bir neçə gün ərzində başa çatır.

### İnsanlar ən çox sənədlərini itirirlər

Müşahidələr göstərir ki, insanlar ən çox sənədlərini itirirlər. Xüsusilə hava limanlarında itirilən sənədlərin sayı daha çoxdur. Bu cür hallarda nəqliyyat polisi tapılan sənədləri Tapıntılar bürosuna təhvil verir. Bəzən isə vətəndaşlar tapdıqları əşya və ya sənədləri birbaşa büroya gətirirlər. İtki sahibləri isə müvafiq ərizə ilə müraciət etdikdən sonra sənəd və ya əşyalarını geri alırlar.

Ən çox itirilən sənədlər sırasında xarici pasportlar xüsusi yer tutur. Həmçinin "ASAN xidmət" mərkəzlərində unudulan sənədlər də Tapıntılar bürosuna təhvil verilir. Ötən il 396 vətəndaşın sənədi tapılaraq sahibinə qaytarılıb, ümumilikdə isə 2 min 615 vətəndaşa itki ilə bağlı arayış təqdim olunub. Göründüyü kimi, Tapıntılar bürosunun fəaliyyəti təkcə itirilmiş əşya və sənədlərin qaytarılması ilə məhdudlaşmır. Bu ünvan eyni zamanda cəmiyyətdə vətəndaş məsuliyyətinin, dürüstlüyün və qarşılıqlı etimadın bariz nümunəsidir. Rəqəmsal həllərin tətbiqi polis–vətəndaş münasibətlərində operativliyi və rahatlığı artırmaqla yanaşı, insanların vaxtına real qənaət edir. Bir sənədin geri qaytarılması, bir arayışın vaxtında təqdim olunması vətəndaş üçün ciddi bir problemin həllidir. Bu baxımdan Tapıntılar bürosu ümidin itirilmədiyi, etibarın qorunduğu ünvan kimi öz işini uğurla davam etdirir.

*L.Babayeva*

# Sözsüz danışan sübutlar

## "Bədən dili detektivləri"

**Elmi araşdırmalara əsasən insan beyni informasiyanın 55 faiz bədən dili, 38 faiz səs tonu, 7 faiz isə sözlər vasitəsilə qəbul edir və ötürür. Ona görə də polis əməkdaşları istintaq prosesi zamanı yalnız dindirilən şəxsin danışdıqlarına deyil, jest və mimikalarına, səs tembrinə də diqqət yetirirlər.**



Bədən dili üzrə təlim almış əməkdaşlar, bəzən "bədən dili detektivləri" adlandırılan mütəxəssislər şübhəlinin yalanını, hər hansısa narahatlığını və ya gizlətdiyi detalları məhz xüsusi müşahidə bacarığı ilə üzə çıxara bilirlər.

Amerika Birləşmiş Ştatlarının Federal Təhqiqat Bürosunun keçmiş agenti və bədən dili üzrə ekspert olan Co Navarronun fikrincə, insanlar yalan danışarkən bədənlərinə, xüsusilə boyun, üz və ya qol nahiyələrinə toxunmağa meyilli olurlar.

Bu, daxili gərginliyin qeyri-iradi şəkildə bədənə ötürülməsi ilə izah olunur. Əllərin sıxılması, nəfəs ritminin dəyişməsi və ya gözünü yayındırmaq isə ənənəvi əlamətlərdir.

### Təcrübə: tələbə qatilinin məhkəmə işi

2007-ci ildə İtaliyada Meredit Kerçer adlı tələbənin qətli bir anda dünya mediasının gündəminə çevrildi. Cinayəti törətməkdə şübhəli bilinən amerikalı Amanda Noksun məhkəmə prosesi zamanı davranışları və xüsusilə də bədən dili geniş müzakirələrə səbəb oldu. O, məhkəmə salonunda rahat, bəzən gülərüz və anormal dərəcədə sakit göründü.

Bu davranışlar əksəriyyət tərəfindən qeyri-səmimi, bəzi şəxslər tərəfindən isə travma sonrası özünümüdafiə instinkti kimi şərh edildi. Sözügedən hadisə sübuta yetirdi ki, bədən dili analizləri təkcə istintaq prosesi üçün gərəkli deyil, həm də ictimai rəyə təsir baxımından güclü alətdir.

### Bədən dili şübhəlini aşkar göstərir

Adətən hava limanlarında potensial təhlükəsizlik risklərini müəyyənləşdirmək üçün fərdlərin hərəkətlərini müşahidə və təhlil edirlər.

Onlar səfərə çıxan insanların qeyri-adi davranışlarını - ani narahatlıq, göz əlaqəsindən yayınmaq, addımlarını tez-tez dəyişmək və ya əl barmaqlarını sıxmaq kimi halları aşkarlayaraq daha dərindən yoxlanış aparılması üçün məruzə edirlər. Bu üsul sayəsində dəfələrlə axtarışda olan, eləcə də təhlükəli əşya və ya narkotik maddə daşıyan şəxslər təyyarəyə minməmişdən əvvəl ifşa olunaraq saxlanılıb. Yəni onların bədən dili real təhlükənin öncədən qarşısının alınmasına xidmət edib.

Bir çox ölkədə istintaq üsulları arasında bədən dilinin müşahidəsi mühüm yer tutur. Dindirmə prosesi zamanı fərdin jestlərinə və suallara reaksiyalarına xüsusi diqqət yetirilir.

Məsələn, şübhəli şəxs suallara cavab verərkən birdən nəfəsini tutur, sonra gözlərini tez-tez qırpmağa başlayırsa, yaxud əllərini tez-tez hərəkət etdirirsə, bu, onu narahat edən və ya gizlətmək istədiyi nələrinsə ola biləcəyinə işarədir.

Müstəntiqlər bədən dili siqnallarını digər sübutlarla birləşdirərək daha dəqiq araşdırma istiqamətləri müəyyənləşdirə bilirlər.

Məhz bədən dili burada açar rolunu oynayır, amma tək halda sübut kimi qəbul olunmur.

### Texnologiya inkişaf etsə də...

Bir sözlə, davranış, baxış, jest, mimika - bütün bunlar sözsüz sübutlardır. Həmin işarələri oxumağı bacaran əməkdaşlar çox vaxt kriminal hadisələrin arxasındakı gizli motivləri və psixoloji halları daha tez aşkar edə bilirlər.

Buna görə də sübutların toplanmasında, şübhəlilərin ifadələrinin analizində, ümumilikdə isə hüquqi prosesin obyektiv aparılmasında "bədən dili detektivləri" getdikcə daha çox paya sahib olurlar. Etiraf edilməlidir ki, texnologiya nə qədər inkişaf etsə də, insan davranışı hələ də həqiqətə açılan ilk qapılardan biridir.

*A.Tahirova*

# Sözün intizamı

## Polisin nitqi daşıdığı forma qədər məsuliyyət tələb edir

Vətəndaşla ilk ünsiyyət zamanı yaranan təsəvvür çox vaxt məhz danışıq tərzi ilə formalaşır. Sözün düzgün seçilməsi və yerində işlədilməsi polis - vətəndaş münasibətlərində qarşılıqlı etimad yaradır.

Polis əməkdaşı vətəndaşla danışarkən hər zaman sakit və təmkinli olmağa diqqət yetirməlidir. Ola bilsin hər hansı hadisə zamanı gərgin və emosional vəziyyət yaransın. Bu halda belə səs tonunu qorumaq və qarşı tərəfi sona qədər dinləmək zəruridir. Bu yanaşma vəziyyətin daha tez və sağlam həllinə kömək edir. Aqressiv və sərt danışıq isə gərginliyi artıra və anlaşılmazlıq yarada bilər.

Polis əməkdaşı fikri qısa, konkret və sadə formada ifadə etməli, hüquqi terminlərdən istifadə edərkən isə sözü izah etməklə, vətəndaş üçün vəziyyətin mahiyyətini aydınlaşdırmalıdır.

Yadda saxlamaq lazımdır ki, nəzakətli ünsiyyət bacarığı polis əməkdaşının nitqinin ayrılmaz tərkib hissələrindən biridir. Danışıqda istehza və şəxsiyyəti alçaldan ifadələrə yol verməmək sözün kəsərini, bir sözlə, göstərişin icrasına yalnız müsbət təsir edir. Düzgün qurulmuş nitq ictimai təhlükəsizlik və qarşılıqlı anlayış üçün də mühüm amildir. Belə nitq münaqişənin kiçik müstəvidən daha böyük miqyasa çatmasının qarşısını alır, beləliklə də vətəndaşlarda polisə inamı daha da möhkəmləndirir.

Nəticə etibarı ilə deyə bilərik ki, polis əməkdaşının nitqi daşıdığı uniforma qədər məsuliyyətli olmağı tələb edir.

# Akademiya işə qəbul elan edir

## Namizədlərin seçimi zamanı elmi dərəcəyə üstünlük veriləcək

Daxili İşlər Nazirliyinin Polis Akademiyasında vakant olan professor-müəllim (mülki) heyəti üzrə işə qəbul elan edilir.

DİN-in Polis Akademiyasında vakant olan professor-müəllim (mülki) və mütəxəssis vəzifələrinə işə qəbul ilə əlaqədar müvafiq sahələr (hüquqşünaslıq və informasiya təhlükəsizliyi) üzrə tam ali təhsilli, bilik səviyyəsi yüksək və elmi-pedaqoji fəaliyyətlə məşğul olan, dövlət dilini sərbəst bilən Azərbaycan Respublikasının vətəndaşları müraciət edə bilərlər.

Polis Akademiyasında işə qəbul ilə bağlı müraciət edən namizədlərin seçimi zamanı elmi dərəcəyə və elmi ada, eyni zamanda elmi-pedaqoji təcrübəyə malik şəxslərə üstünlük veriləcəkdir.

Professor-müəllim (mülki) vəzifələrinə şəxslərin işə qəbulu DİN-in Polis Akademiyası tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir.

Müraciət üçün DİN-in Polis Akademiyasının "8880" nömrəli qaynar xətti, policeacademy@pa.edu.az və (012) 454-12-78, (012)554-99-84 telefon nömrələri ilə əlaqə saxlamaq mümkündür.

Qeyd: Müraciətlər nəzərdən keçirilərək yalnız vakant olan vəzifələrin tələblərinə uyğun olan namizədlər müsahibə mərhələsinə dəvət olunacaqlar.

# Qarlı havalarda piyadalar necə davranmalıdır ?

## Təhlükəsizlik üçün diqqətli davranmaq vacibdir

Qarlı və buzlu havalarda piyadaların, ilk növbədə, sürüşməyən altlıqlı ayaqqabı geyinmələri yıxılma riskini azaldır. Səkilərdə və keçidlərdə tələsmədən, xırda addımlarla hərəkət etmək məsləhətlidir. Əlləri cibdə saxlamaq əvəzinə, tarazlığı qorumaq üçün sərbəst tutmaq daha təhlükəsizdir. Yolun qarşı tərəfinə keçərkən yalnız işıqfor və piyada keçidlərindən istifadə olunmalıdır.

Məhz buna görə də qarlı havalarda polis hərəkət iştirakçılarına müraciət edərkən piyadalara tövsiyələr verir və onları təhlükəsizlik hərəkətləri ilə bağlı məlumatlandırır.



Uşaqlar və yaşlılar qarlı havada xüsusilə ehtiyatlı olmalı, mümkün olduqda müşayiət edilməlidir. Qaranlıq vaxtlarda görünmə səviyyəsini artırmaq üçün açıq rəngli geyimlərə üstünlük verilməlidir.

Unutmayaq ki, diqqətli davranış qarlı havalarda baş verə biləcək qərarların qarşısını alır.

# Dünyada yenilik

## Çində robot yol polisləri xidmətə başlayıb

Çinin Anhuy əyalətinin Uhu şəhərində "ağıllı robot" yol polisləri xidmətə başlayıb. Robot polislər şəhərin qaynar küçələrində yol hərəkətinin idarə olunmasında iştirak edir.



Xüsusi rütbələri də olan robotlar polis həmkarları ilə birgə xidmət aparır. Robot yol polisi kiçik mobil platformaya bərkidilib ki, bu da ona təyin olunmuş yerə hərəkət etməyə, bütün istiqamətlərdən nəqliyyatın hərəkətini idarə etməyə imkan verir.

Uhu yol polisi idarəsinin zabiti Cian Cihao bildirib ki, nəqliyyatın intellektual idarəetmə sisteminə qoşulan robot polislər həmkarları ilə sıx əməkdaşlıq edərək yol hərəkətini avtonom şəkildə istiqamətləndirə bilir. O, mühərriksiz nəqliyyat vasitələrinin qayda pozuntularını da müəyyən etməyi bacarır.

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR:
ANAR QAFAROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik